# İQTİSADİYYAT VƏ İDARƏETMƏ SAHƏSİNDƏ TƏDQİQATÇILARIN VII BEYNƏLXALQ ELMİ KONFRANSININ (İSCEMR 2025) NƏTİCƏLƏRİNƏ DAİR

## HESABAT

12-14 iyun 2025-ci il, Bakı şəhəri, Heydər Əliyev Mərkəzi

İqtisadiyyat və idarəetmə sahəsində tədqiqatçıların iştirakı ilə keçirilən VII Beynəlxalq Elmi Konfrans 12-14 iyun 2025-ci il tarixlərində Bakı şəhərində yerləşən Heydər Əliyev Mərkəzində baş tutmuşdur.

Konfrans Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Heydər Əliyev Mərkəzi və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə həyata keçirilmişdir.

"Dairəvi iqtisadiyyat və dayanıqlı ekosistem" mövzusunda keçirilmiş 7-ci konfransda əsas məqsəd elmi biliklərin paylaşılması, beynəlxalq təcrübə mübadiləsi və gənc tədqiqatçıların fəaliyyətinin təşviqi olmuşdur. Konfrans öz işində dövlət, özəl sektor və akademik ictimaiyyəti bir araya gətirərək regional və qlobal problemlərin həllinə töhfə vermək missiyasını hədəfləmiş və uğurla öz hədəfinə nail olmuşdur.

Tədbirdə Amerika, Avropa və Asiyadan ümumilikdə 24 ölkənin, o cümlədən ABŞ, Kanada, Birləşmiş Krallıq, İtaliya, Almaniya, Fransa, Türkiyə, Rusiya, İndoneziya və s. ölkələrdən 57 tədqiqatçı iştirak etmişdir. Konfransın elm komitəsi tərəfindən qəbul olunmuş 224 elmi məqalənin "Xülasələr Kitabı" və "Məqalələr toplusu" nəşr olunmuşdur.

Konfrans çərçivəsində əlavə iki - "Akademik yazı" və "Dairəvi iqtisadiyyat" kitabları da nəşr olunmuş və iştirakçılara təqdim olunmuşdur. Hər iki nəşr elmi nəticələrin konsolidasiyası və tədqiqatçılar üçün dəstək məqsədi ilə hazırlanmışdır. Belə ki, "Akademik yazı" kitabı bakalavr, magistrant və doktorantlar, habelə tədqiqatla məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuş nəzəri və praktiki vəsaitdir. Kitabda akademik yazının qaydaları, strukturu, ədəbiyyat icmalı və mənbələrlə iş bacarıqları, habelə plagiat halları ilə bağlı məsələlər ətraflı izah olunur. Əlavə olaraq APA və digər

istinad formatları, akademik üslubun xüsusiyyətləri və tədqiqat etikası kimi mövzular da diqqətə çatdırılır. Kitabın ümumilikdə məqsədi gənc tədqiqatçılara beynəlxalq standartlara uyğun yazı bacarıqları qazandırmaq və akademik məhsuldarlığı artırmaqdır.

“Dairəvi iqtisadiyyat” kitabı isə konfransın əsas mövzusu ilə bağlı müasir yanaşmaları və nəzəri çərçivələri əhatə edir. Bu nəşrdə dairəvi iqtisadiyyatın əsas prinsipləri olan - tullantısız istehsal, resursların yenidən istifadəsi, ekoloji dizayn, bioiqtisadiyyat, yaşıl innovasiyalar və urban transformasiya strategiyaları geniş təhlil olunmuşdur. Kitabın ayrı-ayrı bölmələrində dünyada tətbiq olunan qabaqcıl təcrübələrə yer verilmiş və Azərbaycanın iqtisadi inkişaf strategiyası kontekstində dairəvi iqtisadiyyatın tətbiq imkanları qiymətləndirilmişdir.

Hər iki kitab tədbirin elmi və metodoloji töhfələrindən biri kimi konfrans iştirakçılarına təqdim edilmiş və gənc tədqiqatçılar, doktorantlar və mütəxəssislər üçün əhəmiyyətli mənbədir.

Plenar sessiyada əsas çıxışçılar konfransın fəxri sədri Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradov, Azərbaycan Respublikası Elm və Təhsil Nazirinin müavini Həsən Həsənli, COP29-un baş danışıqçısı, XİN müavini Yalçın Rəfiyev, UI GreenMetric reytinqinin təsisçisi professor Riri Fitri Sari, Harvard/MIT məzunu Qabriel Karboni və Regional İnkişaf İctimai Birliyinin “Beynəlxalq Təşkilatlarla əməkdaşlıq şöbəsi”nin müdiri Gülbağda Leysanova Hacıyeva olmuşdur.

Konfransda 3 panel müzakirəsi geniş elmi-analitik yanaşmaları əhatə etməklə aşağıdakı moderator və spikerlərin iştirakı ilə keçirilmişdir:

**I PANEL:** “COP29 AZƏRBAYCAN TÖHFƏSİ: İqlim dəyişikliyi və maliyyələşdirilməsi, resurslardan səmərəli istifadə”

**Moderator:**

Hüseyn Hüseynov - İqtisadiyyat Nazirliyinin Dayanıqlı inkişaf və sosial siyasət şöbəsinin müdiri

**Spikerlər:**

- Elnur Soltanov - Energetika Nazirinin müavini, COP 29-un Baş icracı direktoru

- Nigar Arpadarai - Azərbaycan Milli Məclisinin deputatı, BMT-nin İqlim dəyişmələri üzrə yüksək səviyyəli çempionu

- Levent Kurnaz - Boğaziçi Universitetnin professoru

**II PANEL:** "Dairəvi iqtisadiyyatın drayverləri: Rəqəmsal transformasiya və dayanıqlı ekosistem"

**Moderator:**

Orxan Mikayıl - "Aqualink" MMC-nin baş direktoru

**Spikerlər:**

- Prof. Riri Fitri Sari - UI Green Metric World University Rankings-in təsisçisi

- Fərid Osmanov - RİNN yanında İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin İdarə Heyətinin sədri

- Sabit Zeyniyev - "Təmiz Şəhər" ASC-nin İdarə Heyətinin üzvü

- Ramona Rupeika - Latviya universitetinin professoru

- İlkim Yiğit - TOMRA Collection şirkətinin İctimai İşlər üzrə Vitse-Prezidenti

**III PANEL:** "İqtisadi, ekoloji və enerji problemlərinin həlli perspektivləri və alternativ enerji resursları"

**Moderator:**

Elkhan R. Sadik-Zada - Almaniyanın Ruhr Universitetinin İnkişaf İqtisadiyyatı və siyasəti İnstitutunun professoru, Dünya Azərbaycanlı Alimlər Birliyinin üzvü

**Spikerlər:**

- Səbinə İsgəndərova - Kanadanın Kalqari Universitetinin professoru, Ətraf Mühitin İdarə edilməsi Proqramının Təlimatçısı, Dünya Azərbaycanlı Alimlər Birliyinin üzvü

- Avazbek Xalbekov - Özbəkistan Respublikasının Davamlı İnkişaf Mərkəzi İdarə Heyətinin Şöbə Müdiri

- Firuzə Cəfərova - Azərbaycan Dövlət İqtisad Universitetinin "İctimai idarəetmə və sosial innovasiyalar" kafedrasının dosenti

Panel iclaslarında COP29-un iqlim dəyişikliyi və maliyyələşdirilməsi, resurslardan səmərəli istifadə sahəsində töhvələri, ekosistemlərin mühafizəsi yolları və alternativ enerji texnologiyalarının istifadə imkanları müzakirə olunmuşdur.

Konfrans çərçivəsində fərqli sahələr üzrə elmi dialoqa şərait yaradan və mövcud tədqiqat istiqamətləri haqqında geniş təsəvvür yaradan workshop və sessiya iclasları keçirilmişdir. Keçirilən 9 workshop aşağıdakı mövzulara həsr olunmuşdur:

1. Qlobal Cənubda enerji keçid yolları: Çağırışlar və İmkanlar – Moderator: Prof. Elkhan R. Sadik-Zada

2. Süni intellekt və məlumat analitikası ilə iqtisadi sistemlərin optimallaşdırılması – Moderator: Prof. Saleh Məmmədov

3. Dairəvi iqtisadiyyatda gender bərabərliyi və sosial inklüzivlik – Moderator: Dr. Nərgiz Hacıyeva

4. Sosial məsuliyyətli və dayanıqlı biznes modelləri – Moderator: Aygün Abdulova

5. Dairəvi iqtisadiyyatın təşviqində təhsilin rolu – Moderatorlar: Dr. Cəbrayıl Vəliyev, Assoc. Prof. Sezer Kahyaoğlu

6. İstehlakçı məlumatlılığı və dayanıqlı məhsul seçimi – Moderator: Dr. Maral Camalova

7. Süni intellekt, Etika və Dayanıqlılıq: Risklər və Fürsətlər – Moderator: Prof. Vahab Tecim

8. Dairəvi iqtisadiyyat, eko-innovasiyalar və yaşıl texnologiyalar – Moderator: dos. Elçin Süleymanov

9. Dayanıqlı istehlak və istehsal (SCP) siyasəti – Moderator: Sənan Orucov

Hər workshopa müxtəlif ölkələrdən olan aparıcı alim və sənaye mütəxəssisləri qatılmış, təqdimatlar zamanı praktiki tətbiq imkanları müzakirə olunmuşdur.

**Konfrans ərzində təqdim olunan tədqiqatlarda aşağıdakı istiqamətlər xüsusi əhəmiyyət kəsb etmişdir:**

1. Dairəvi iqtisadiyyatın prinsipləri və tətbiqləri

- Dairəvi iqtisadiyyatda "Həyat tsikli" prinsipinin tətbiqi
- Xammalın təkrar istifadəsi və resurslardan səmərəli istifadə
- Eko-dizayn və dayanıqlı məhsul tənzimləmələri

2. Dayanıqlı istehlak və istehsal modelləri

- Dayanıqlı istehlak və istehsal (SCP) siyasəti
- İstehlakçı məlumatlılığı və dayanıqlı məhsul seçimi
- Dayanıqlı dövlət satınalmaları (SPP) və resursların optimal idarə olunması
- Dayanıqlı istehlak və qida təhlükəsizliyi

3. Dairəvi iqtisadiyyat və eko-innovasiyalar

- Eko-innovasiyalar və yaşıl texnologiyalar
- Bioloji müxtəliflik və ətraf mühitə təsirlər

4. İqlim dəyişiklikləri və dayanıqlı ekosistemlər

- İqlim dəyişikliyinin ekosistemlərə təsirləri
- Ekoloji izlərin azaldılması və karbon "ayaq izi"nin idarə edilməsi

5. Tullantıların idarə olunması və çirklənməyə qarşı mübarizə: elmi-praktik yanaşmalar

- Tullantıların sıfır emissiyalı idarəetmə sistemləri
- Dairəvi biznes modelləri: tullantıların azaldılması və yenidən istifadəsi

6. Dairəvi iqtisadiyyatın qlobal və lokal perspektivləri

- Qlobal ətraf mühit siyasətləri və dairəvi iqtisadiyyat
- Lokal səviyyədə dairəvi iqtisadiyyatın tətbiqi
- Dairəvi iqtisadiyyatda beynəlxalq əməkdaşlıq

7. Dairəvi iqtisadiyyatda maliyyə strategiyaları və tətbiqlər

- Sıfır karbon iqtisadiyyatına yönəlk maliyyə strategiyaları
- Sosial məsuliyyətli və dayanıqlı biznes modellərinin tətbiqi
- Təşkilatlar və dövlətlər üçün maliyyə stimulları

8. Bərpa olunan ekosistemlər və resursların dayanıqlı idarə edilməsi

- Ekosistemlərin bərpası və təbii sərvətlərin qorunması
- Ekoloji deqredasiya və zərər görmüş ərazilərdə dayanıqlı inkişaf
- Su və torpaq resurslarının dayanıqlı idarə edilməsi
- Ətraf mühitə təsirlərin qiymətləndirilməsi

9. Sosial inteqrasiya və inklüziv iqtisadiyyat

- Sosial ədalət və bərabərlik: dairəvi iqtisadiyyatın sosial aspektləri
- Davamlı iqtisadiyyat və sosial rifahın təmin edilməsi

- Dairəvi iqtisadiyyatda gender bərabərliyi və sosial inklüzivlik

10. Dayanıqlı gələcək üçün texnoloji transformasiya və innovativ həllər

- Dayanıqlı gələcək üçün alternativlər və yeni texnologiyalar
- Təbii resursların mühafizəsində innovasiyalar tətbiqi
- Süni intellekt və məlumat analitikası ilə ekosistemlərin optimallaşdırılması

11. Kibertəhlükəsizlik və onun dairəvi iqtisadiyyatla inteqrasiyası

- Kibertəhlükəsizliyin dairəvi iqtisadiyyata təsirləri
- Biznesdə məlumatların mühafizəsi və kibertəhlükəsizlik
- Rəqəmasal ekosistem və kibertəhlükəsizlik

Bu istiqamətlərdə əldə olunan nəticələr həm nəzəri təhlillərlə zənginləşmiş, həm də real sektorda tətbiq imkanları baxımından dəyərləndirilmişdir.

Konfrans Azərbaycan Respublikasının elm və təhsil sahəsində həyata keçirdiyi strategiyanın bir hissəsi olaraq elmi biliklərin cəmiyyətin inkişafına töhfəsini bir daha nümayiş etdirmişdir. UNEC-in 95 illik yubileyinə həsr olunan bu tədbir ali təhsil müəssisəsinin beynəlxalq elmi platformalardakı mövqeyini gücləndirməklə yanaşı, regionda dayanıqlı inkişaf müzakirələrinin strateji mərkəzinə çevrilmişdir.

**Konfransın sonunda aşağıdakı qənaətlərə gəlinmişdir:**

1. Dairəvi iqtisadiyyat və iqlim dəyişiklikləri üzrə tədqiqatların davam etdirilməsi və elmi əməkdaşlığın daha da genişləndirilməsi.
2. Ortaq layihə və tədqiqatların icrası ilə bağlı əlavə təşəbbüslərin irəli sürülməsi və praktiki işlər görülməsi.
3. Növbəti konfransın (İSCEMR 2026) dayanıqlı inkişafa zəmin yaradan digər aktual mövzuda, daha geniş miqyasda keçirilməsi.

**Tədbirlə bağlı linklər:**

https://www.facebook.com/share/p/16v3ZkbUdZ/

https://www.facebook.com/share/p/15dGLXre9o/

https://www.facebook.com/share/p/1B4gDEfgUT/

https://www.facebook.com/share/p/176bt1tYXw/

https://www.facebook.com/share/p/1EriRTtRqi/

https://www.facebook.com/share/v/1Dv9isysDK/

https://www.facebook.com/share/p/12KgTid67qM/

https://www.facebook.com/share/p/1GFgDWhEay/

https://www.facebook.com/share/p/1DyPQa217S/

https://www.facebook.com/share/p/15UZygN8db/

https://www.facebook.com/share/v/16qaJqffgZ/ - VİDEO İCMAL